# 80 il əvvəl və indi

Müsahibimiz Zəngilan Rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin direktoru Məhruzə Cəfərovadır. Məlumat üçün bildirək ki, Cəfərova Məhruzə Cəfərqulu qızı 1959-cu il martın 16-da Zəngilan rayonunun Mincivan qəsəbəsində anadan olmuşdur.

Azərbaycan Dövlət Universitetinin (indiki BDU) kitabxanaçılıq fakültəsini bitirmişdir. İxtisası üzrə müxtəlif vəzifələrdə çalışmışdır. 2007-ci ildən Zəngilan Rayon MKS-in direktorudur. Söhbət zamanı Məhruzə xanım rəhbərlik etdiyi sahənin inkişaf tarixindən, üzləşdiyi problemlərdən, qazanılan uğurlardan danışdı:

- Zəngilan rayonunda ilk kitabxana 1933-cü ildə fəaliyyətə başlamışdır. Rayon mərkəzləşdirilmiş kitabxana sistemi (MKS) 1976-cı ildə təşkil edilmişdir. O zaman MKS-in 7 şöbəsi (metodika, kitabişləmə və komplektləşdirmə, abonoment, oxu zalı, vahid fondun təşkili, səyyar, biblioqrafiya) olmuşdur. Zəngilanın süqutundan əvvəl şəbəkədə 1 rayon mərkəzi, 3 şəhər, 1 qəsəbə, 65 kənd kütləvi kitabxanası fəaliyyət göstərmişdir. 1991-ci ilin məlumatına görə rayon MKS-də 158 nəfər əməkdaş çalışmışdır. MKS-in ixtiyarında 9 otaq və 1 oxu zalından ibarət iki mərtəbəli bina olmuşdur.



Kitabxana fondlarının ümumi həcmi 490 min nüsxə, oxucuların sayı 20 min nəfər təşkil etmişdir. Zəngilan Rayon MKS hər il respublika və rayon əhəmiyyətli "Məhsul bayramı" və "Novruz bayramı" tədbirlərinin təşkilatçısı olmuşdur.

29 oktyabr 1993-cü ildə Zəngilan rayonunun süqutu nəticəsində rayonun mərkəzindəki 1 mərkəzi, 3 şəhər, 1 qəsəbə, habelə kəndlərində fəaliyyət göstərən 70 kitabxana filialı dağıdılmış, məhv edilmiş və burada saxlanılan nadir, qiymətli kitablar talan edilmiş, rayon kitabxanalarına indiki qiymətlərlə 1 milyon 660 min manat həcmində maddi ziyan dəymişdir.

1993-cü il məlum hadisələrdən sonra kitabxananın fəaliyyəti müvəqqəti olaraq dayanmışdır. Lakin 17 ildən sonra nəhayət ki, Zəngilan MKS-in fəaliyyəti yenidən bərpa olundu. 2010-cu ildən öz fəaliyyətini Bakı şəhərində davam etdirən MKS hər şeyə sıfırdan başlayıb. MKS-in Bakı həyatının ilkin əsası 4927 nüsxədən ibarət kitabla qoyulub.

"2008-2013-cü illərdə Kitabxana-informasiya sahəsinin inkişafı üzrə Dövlət Proqramı"nın icrası ilə əlaqədar Zəngilan RİH-nin 24 aprel 2010-cu il tarixli 21 №-li Sərəncamı ilə rayon mərkəzi kitabxanasının fəaliyyəti bərpa olunmuşdur. Mərkəzi kitabxanada 5 şöbə fəaliyyət göstərirdi. Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı"nın təsdiq edilməsi barədə 6 oktyabr 2008-ci il tarixli, 3072 nömrəli Sərəncamı kitabxanalara qayğının göstəricisidir. Bildiyimiz kimi, Dövlət Proqramına uyğun olaraq respublika kitabxanalarının informasiyalaşdırılması işi həyata keçirilir. Bununla əlaqədar Zəngilan Rayon Mədəniyyət və Turizm Şöbəsi mərkəzi kitabxanaya 3 ədəd kompüter vermişdir. 2011-ci ilin may ayında mərkəzi kitabxananın veb-saytı yaradılmışdır. Saytda Zəngilan rayonu və onun ziyalıları, görkəmli şəxsləri, abidələri, kitabxananın keçirdiyi tədbirlər, kitabxana üçün hüquqi normativ sənədlər haqqında məlumatlar yerləşdirilmişdir. İstənilən şəxs veb-sayt vasitəsilə bu məlumatlarla tanış ola bilər.

"Azərbaycan Respublikasının şəhər (rayon) mərkəzləşdirilmiş kitabxana sistemlərinin, müstəqil kitabxanaların, şəhər, qəsəbə və kənd kitabxana filiallarının, habelə şəhər, qəsəbə kütləvi, uşaq və gənclər kitabxanalarının nümunəvi strukturu və ştat vahidləri"nin təsdiq edilməsi haqqında (Azərbaycan Respublikasının Nazirlər Kabineti, Qərar № 162, Bakı şəhəri, 11 oktyabr 2011-ci il) struktur dəyişikliyi ilə əlaqədar 2012-ci ilin yanvar ayından etibarən mərkəzi kitabxanada 6 şöbə fəaliyyət göstərir:

- Oxuculara xidmət şöbəsi;
- Kitabişləmə və komplektləşdirmə şöbəsi;
- Metodika və biblioqrafiya şöbəsi;
- İnformasiya-resurs şöbəsi;
- Kitabxana-biblioqrafiya proseslərinin avtomatlaşdırılması şöbəsi;
- Uşaq şöbəsi.

Mərkəzi kitabxanada 26 nəfər işçi çalışır. Onlardan 9 nəfəri ali, 12 nəfəri orta-ixtisas, 5 nəfəri isə orta təhsillidir. Ötən hesabat ilində Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyinin məktubunu nəzərə alaraq Zəngilan RİH-nin başçısı cənab Ramiz Həsənovun şəxsən özünün təşəbbüsü ilə iki otaq ayrılıb bizə verildi ki, bunun da sayəsində iki yeni şöbə yaradıldı:

- Kitabxana və biblioqrafiya proseslərinin avtomatlaşdırılması şöbəsi;
- İnformasiya-resurs şöbəsi.

Zəngilan Rayon MKS-in kitab fondu hal-hazırda 7658 nüsxədir. Bunun 5819 nüsxəsi latın qrafikalı, 1721 nüsxəsi isə kiril qrafikalıdır. 95 nüsxəsi rus dilli, 23 nüsxəsi isə ingilis dilli ədəbiyyatdır.

Zəngilan rayon kitabxanasının fonduna mütəmadi olaraq Azərbaycan Milli Elmlər Akademiyasından, M.F.Axundov adına Milli Kitabxanadan, Respublika Kitabxana Kollektorundan, M.Seyidzadə adına Mərkəzi Şəhər Uşaq Kitabxanasının satış mağazasından, Zəngilan yazarları tərəfindən kitablar daxil olur. Həmin kitabların hamısı kitabişləmə və komplektləşdirmə şöbəsi tərəfindən kitabxana qaydası ilə tam şəkildə işlənərək şöbələrə və filiala göndərilmişdir.

Hər il 2 nəfər əməkdaşımız Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin Hazırlıq və İxtisasartırma Mərkəzinə göndərilir.



2013-cü ildə Zəngilan Rayon MKS Respublika Kitabxana Kollektoru ilə müqavilə bağlamış və 500 (beş yüz) manatlıq kitabxana texnikası və kitablar alınmışdır.

2013-cü ildə kitabxanamız "Zəngilanın səsi", "Xalq", "Mədəniyyət", "Respublika", "Yeni Azərbaycan", "Zəngəzurun səsi", "New Baku Post", "Xalq cəbhəsi" qəzetlərinə və "Mədəni həyat", "Pəncərə", "Göy qurşağı", "Sehrli dünya" və s. jurnallarına abunə olmuşdur.

Mərkəzi Kitabxanada mütəmadi olaraq bir sıra tədbirlər gerçəkləşdirilir. 24 may 2013-cü il tarixində ulu öndər Heydər Əliyevin anadan olmasının 90 illik yubileyinə həsr olunmuş kitab bayramı keçirildi. Tədbirdə Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin nümayəndəsi, C.Cabbarlı adına Respublika Gənclər Kitabxanasının direktoru T.Kərimov iştirak edirdi.

"Qanlı 20 Yanvar", "Xocalı soyqırımı", "31 mart - Azərbaycanlıların soyqırımı günü", "10 may - ulu öndərimizin doğum günü", "İnsan hüquqlarının müdafiəsi", "15 iyun - Qurtuluş günü", "Müqəddəs Qurban bayramı", "31 dekabr - Dünya Azərbaycanlılarının həmrəylik günü" münasibətləri ilə tədbirlər keçirilmişdir.

**Kitabxanaya geniş oxucu kütləsini cəlb etmək üçün idarə, müəssisə, təşkilat və özəl qurumlarla, təhsil ocaqları ilə birgə iş aparılmışdır. Daxil olmuş yeni ədəbiyyatların təbliği üçün müxtəlif kütləvi tədbirlər - kitab sərgisi, stend, kitab təqdimatı, ədəbiyyatların tövsiyəsi, məruzə, mühazirə - lər, ədəbi-bədii gecələr, biblioqrafik icmal və s. keçirilmişdir...**

**Kəmalə QURBANOVA**